# mr.Waterstoper®

## Tez bərkiyən, istifadəyə hazır montaj və təmir qarışığı

Məhsul kodu: 50.05.007




### Məhsul haqqında

**mr.Waterstoper®** montaj, izolyasiya və təmir işlərində istifadə edilən, su ilə qarışdrıldığı zaman çox qısa vaxtda bərkiyən, tərkibində polimer qüvvətləndirici, xüsusi sement və mineral dolğular olan bir qarışıqdır.

### İstifadə sahələri

- Betondakı sabit çat təmirlərində
- Betonun birləşmə yerlərində, su izolyasiyasından əvvəl pahtlanmasında.
- Aktiv suyun ani bir şəkildə dayandırılması lazım gəldiyi yerlərdə
- Boru, kabel və digər təsisatların keçdiyi betonun təmirlərində
- Beton səthlərdəki yuyulmaların sürətli təmirində
- Su sızaqlarının izolasiyadan əvvəl tıxanması və doldurulmasında
- Qəlib içi qarmaq dəmirinin (tie rod) əmələ gətirdiyi dəliklərin doldurulmasında
- Metal, ankraj və montaj ünsürlərinin müvəqqəti və daimi montajında

### Texniki göstəriciləri

| Materialın tərkibi | Polimer, yüksək performanslı dolğu və xüsusi sement |
|---|---|
| Rəngi | Beton rəngində (boz) |
| İstifadə müddəti | 60-90 san |
| Quruma müddəti | 2-3 dəqiqə |
| Yapışma müqaviməti | ≥ 0,50 N/mm2 (28 gün) |
| Basma müqaviməti | ≥30 N/mm² (28 gün) |

Yuxarıdakı qiymətlər +23°C və 50% nəmlik üçün verilmişdir. Yüksək temperatur müddəti qısaldır, aşağı temperatur müddəti uzadır.

### Üstünlükləri

- Tək komponentlidir və su ilə qarışdırılır
- Aktiv suyu ani bir şəkildə dayandırır
- Hazırlanması və tətbiqi asandır
- Təzə qarışıq doldurulduğu yerdə genişlənərək tam bir tıxanma əmələ gətirir
- Yüksək müqavimətə və stabilliyə malikdir
- Material yistifadə edildikdən 5 dəq. sonra üzərinə suvaq, su izolyasiyası və ya keramika döşənə bilər
- Betonun içərsində olan dəmir bağlantılara zərər verməz
- İçməli su ambarlarının təmirində istifadə edilir

### İstifadə təlimatı

Səthin hazırlanması

Beton və suvaq kimi səthlər hər cür tullantılardan təmizlənmiş olmalıdır. Səth çox tozludursa su ilə yuyulmalı ya da sulu süngərlə təmizlənməlidir. Zəif hissələr səthin üzərindən qazılaraq təmizlənməli sağlam və təmiz bir səth əldə edilməlidir.

Materialın tətbiq ediləcəyi mövcud çatlaq və boşluqlar daha da genişləndirilərək materialın rahat şəkildə yerləşdirilməsi təmin olunmalıdır.

### Hazırlanması

1 dəqiqə müddətində istifadə ediləcək qədər mr.Waterstoper® təmiz bir qab içərisinə qoyulur üzərinə su əlavə edilir (0,24 l/kq-0,28 l/kq) əlcək geyilərək əl ilə çox sürətli bir şəkildə lazımi qatılığa gələnə qədər qarışdırılmalıdır. Qarışdırma əməliyyatı 30 saniyədən çox olmamalı, material sürətlə istifadə olunmalıdır. Çox soyuq havalarda sürətli bərkimə əldə etmək üçün qarışığın suyu isidilməlidir.

## Qarışdırma nisbəti
1 kq toz üçün ~ 0,24 - 0,28 lt su

## Tətbiq edilmə
Aktiv suyun tıxanması üçün çatlağın olduğu və suyun gəldiyi yer ən az 2 sm genişliyində və 2 sm dərinliyində açılmış olmalıdır. Məcun qatılığına gəlmiş olan material əl ilə dəliyə yerləşdirilir və əl ilə 60 saniyə müddətlə təzyiq edilir. Təzyiq yavaş bir şəkildə azaldılır. Bu vəziyyətdə su başqa nöqtədən çıxmağa başlayarsa eyni əməliyyat o yer üçün də tətbiq olunmalıdır. Normal təmirlərdə material bir mala ilə sürətlə yeləşdirilir və səth düzəldilir.
**Qeyd**: Soyuq havalarda material tətbiq edilmədən əvvəl isti bir şəraitdə gözlənilməlidir.

## Saxlama şərtləri
Açılmamış orijinal bağlamada (qablaşdırmada), sərin və quru şəraitdə saxlanmalıdır.

## Saxlama müddəti
Düzgün saxlama şəraitində, istehsal tarixindən etibarən 1 il müddətində istifadəyə yararlıdır.

## Təhlükəsizlik tədbirləri
Tətbiq əsnasında, təhlükəsizlik qaydalarına uyğun olaraq iş paltarı, qoruyucu əlcək, eynək və maskadan istifadə edilməlidir. Məhlul dəriyə və gözə təmas etdirilməməli, təmas etdikdə isə dərhal bol su və sabunla yuyulmalı, udulması halında təcili olaraq həkimə müraciət olunmalıdır. Material tətbiq olunan sahələrə qida məhsulları qoymaq olmaz. Uşaqların əllərinin çatmayacağı yerlərdə saxlanmalıdır. Daha geniş məlumat üçün Təhlükəsizlik Məlumat Formasına baxılmalıdır.

## Cavabdehlik
Mr.Fix sadəcə məhsulun keyfiyyətinə cavabdehdir, məhsulun harada və necə istifadə ediləcəyi ilə əlaqəli yazılı təkliflərdən kənarçıxmalar və/və ya xətalı istifadələrə görə şirkətimiz məsuliyyət daşımır. Xahiş olunur malı alarkən məhsul kitabcası tələb edin və lazımi dəstək üçün şirkətimizin məsul şəxsləri ilə əlaqə saxlayın.

**Net: 5 kq ±2%**

K-Q TSE-ISO-EN 9000

AZS